*ELMİ TƏDQİQAT Beynəlxalq Elmi Jurnal.* İyun 2026, Cild: 6, Sayı: 6, s. 120‒126
*SCIENTIFIC RESEARCH International Scientific Journal.* June 2026, Volume: 6, Issue: 6, pp. 120‒126
DOI: https://doi.org/10.36719/2789-6919/60/120-126

# Azərbaycan Səfəvi dövlətinin Avropa Dövlətləri ilə əlaqələri və Şah I Abbasın (1587-1629) beynəlxalq siyasi baxışları

**Həcər Əhmədova**

***Xülasə.*** *Məqalədə XVII əsrin əvvəllərində Səfəvi dövlətinin xarici siyasəti və beynəlxalq əlaqələri Avropa səyyahlarının müşahidələri əsasında araşdırılmışdır. Tədqiqatın əsas məqsədi Pyetro della Valle və Don Qarsiya de Silvanın qeydləri əsasında Şah I Abbasın Osmanlı imperiyası, Avropa dövlətləri və Papalıq ilə bağlı siyasi-diplomatik baxışlarını təhlil etməkdir. Araşdırmada müqayisəli-tarixi və mənbəşünaslıq metodlarından istifadə edilmişdir.*
*Məqalədə Şah I Abbasın Osmanlı imperiyasına qarşı həyata keçirdiyi siyasi və hərbi strategiya, Avropa dövlətləri ilə diplomatik münasibətləri və beynəlxalq siyasi proseslərə münasibəti təhlil olunur. Pyetro della Vallenin qeydləri əsasında Şahın Papalıq institutu, İspaniya krallığı və Avropadakı dini-siyasi vəziyyət haqqında məlumatlı olduğu göstərilir. Don Qarsiya de Silvanın səfirlik missiyası isə Səfəvi dövlətinin Avropa dövlətləri ilə diplomatik əməkdaşlıq qurmaq cəhdlərinin mühüm nümunəsi kimi qiymətləndirilir.*
*Araşdırma nəticəsində müəyyən edilmişdir ki, Şah I Abbas yalnız regional hökmdar deyil, həm də beynəlxalq münasibətləri dərindən dərk edən uzaqgörən dövlət xadimi olmuşdur. Onun xarici siyasəti hərbi güc, diplomatik fəaliyyət və beynəlxalq əməkdaşlıq prinsiplərinin uzlaşdırılmasına əsaslanmışdır. Avropa səyyahlarının məlumatları Səfəvi dövlətinin XVII əsrin əvvəllərində beynəlxalq münasibətlər sistemində tutduğu mövqenin öyrənilməsi baxımından mühüm əhəmiyyət daşıyır.*

***Açar sözlər:*** *Şah I Abbas, Pyetro della Valle, Don Qarsiya de Silva, Səfəvi dövləti, Osmanlı imperiyası, diplomatik münasibətlər, Avropa səyyahları*

Bakı Dövlət Universiteti, doktorant, Bakı, Azərbaycan
E-poçt: hajarqahmadova@gmail.com
Daxil oldu: 2 Mart 2026; Qəbul edildi: 13 İyun 2026; Onlayn dərc edildi: 30 İyun 2026
© Müəllif(lər) 2026. Bu, Creative Commons Attribution-NonCommercial 4.0 Beynəlxalq Lisenziyası (CC BYNC 4.0) şərtləri altında paylanan açıq girişli məqalədir.

# Relations of the Safavid State of Azerbaijan with European States and the International Political Views of Shah Abbas I (1587-1629)

**Hajar Ahmadova**

***Abstract.*** *This article examines the foreign policy and international relations of the Safavid state in the early seventeenth century through the accounts of European travelers. The main objective of the study is to analyze Shah Abbas I's political and diplomatic views regarding the Ottoman Empire, European states, and the Papacy based on the observations of Pietro della Valle and Don García de Silva y Figueroa. The research employs comparative-historical and source-critical methods.*

*The article discusses Shah Abbas I's political and military strategy toward the Ottoman Empire, his diplomatic relations with European powers, and his perception of international political developments. Pietro della Valle's accounts demonstrate the Shah's familiarity with the Papacy, the Spanish monarchy, and the religious-political situation in Europe. Likewise, the diplomatic mission of Don García de Silva y Figueroa is evaluated as an important example of Safavid efforts to establish closer relations with European states.*
*The study concludes that Shah Abbas I was not only a regional ruler but also a far-sighted statesman with a profound understanding of international affairs. His foreign policy was based on the combination of military strength, diplomatic engagement, and international cooperation. The accounts of European travelers constitute valuable sources for understanding the position of the Safavid state within the international system of the early seventeenth century.*

***Keywords:*** *Shah Abbas I, Pietro della Valle, Don García de Silva y Figueroa, Safavid State, Ottoman Empire, diplomatic relations, European travelers*

---

Baku State University, PhD student, Baku, Azerbaijan
E-mail: hajarqahmadova@gmail.com
Received: 2 March 2026; Accepted: 13 June 2026; Published online: 30 June 2026
© The Author(s) 2026. This is an open access article distributed under the terms of the Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0).

## Giriş

XVII əsrin əvvəlləri Yaxın Şərq və Avropa arasında siyasi münasibətlərin intensivləşdiyi dövr kimi xarakterizə olunur. Bu dövrdə Osmanlı imperiyasının genişlənməsi Avropa dövlətlərini ona qarşı yeni müttəfiqlər axtarmağa sövq etmiş, nəticədə Səfəvi dövləti Avropa diplomatiyasının diqqət mərkəzinə çevrilmişdir. Xüsusilə Şah I Abbasın hakimiyyəti illərində (1587-1629) Səfəvi dövlətinin xarici siyasətində Avropa dövlətləri ilə əlaqələrin genişləndirilməsi mühüm istiqamətlərdən birini təşkil etmişdir. Bu siyasət həm Osmanlı imperiyasına qarşı siyasi balans yaratmaq, həm də dövlətin beynəlxalq nüfuzunu möhkəmləndirmək məqsədi daşıyırdı.

Səfəvi–Avropa münasibətlərinin öyrənilməsində Avropa səyyahlarının və diplomatlarının qeydləri mühüm mənbələr sırasına daxildir. Bu baxımdan İspaniya kralı III Filipp tərəfindən Səfəvi sarayına göndərilmiş səfir Don Qarsiya de Silvanın diplomatik missiyası xüsusi əhəmiyyət kəsb edir. Onun fəaliyyəti və səfər qeydləri Səfəvi dövlətinin siyasi sistemi, saray mərasimləri, diplomatik ənənələri və beynəlxalq münasibətləri haqqında dəyərli məlumatlar ehtiva edir. Eyni zamanda, Pyetro della Vallenin müşahidələri həmin dövrdə Avropa dövlətlərinin Səfəvi dövlətinə münasibətini, Osmanlı–Səfəvi qarşıdurmasının beynəlxalq siyasətdə tutduğu yeri və Avropa diplomatiyasının regiondakı maraqlarını aydın şəkildə əks etdirir.

## Metodlar

Məqalənin məqsədi Pyetro della Valle və Don Qarsiya de Silvanın qeydləri əsasında Şah I Abbas dövründə Səfəvi dövlətinin diplomatik fəaliyyətini, Osmanlı imperiyası və Avropa dövlətləri ilə münasibətlərinin əsas xüsusiyyətlərini təhlil etməkdir. Tədqiqatda Avropa səyyah və diplomatlarının məlumatları müqayisəli-tarixi yanaşma əsasında araşdırılır, onların müşahidələri Səfəvi dövlətinin xarici siyasətinin öyrənilməsi baxımından qiymətləndirilir.

Araşdırma göstərir ki, Şah I Abbas dövründə diplomatik əlaqələr dövlət siyasətinin mühüm alətlərindən biri olmuş, Səfəvi hakimiyyəti həm Osmanlı imperiyası ilə münasibətlərdə, həm də Avropa dövlətləri ilə əməkdaşlıq istiqamətində çevik və praqmatik xətt yürütmüşdür. Bu baxımdan

Avropa diplomatlarının və səyyahlarının qeydləri yalnız təsviri xarakter daşımır, həm də XVII əsrin əvvəllərində Səfəvi dövlətinin beynəlxalq mövqeyinin və diplomatik strategiyasının öyrənilməsi üçün mühüm mənbə kimi çıxış edir.

## Nəticələr

*Pyetro della Vallenin məlumatları əsasında Şah I Abbasın diplomatik fəaliyyəti.* XVII əsrin əvvəllərində Avropa dövlətləri Osmanlı imperiyasına qarşı potensial müttəfiq axtarışları çərçivəsində Səfəvi dövləti ilə diplomatik əlaqələrin inkişafına xüsusi diqqət yetirirdilər. Bu siyasətin mühüm nümunələrindən biri İspaniya kralı III Filipp tərəfindən Səfəvi sarayına göndərilmiş səfir Don Qarsiya de Silvanın diplomatik missiyası olmuşdur. O, 1614-cü ildə İspaniyadan yola çıxaraq uzun və çətin səfərdən sonra 1618-ci ildə Səfəvi dövlətinin paytaxtı Qəzvinə çatmışdır (Amanat, 2017, p. 93-94).

Don Qarsiya de Silvanın əsas vəzifəsi İspaniya ilə Səfəvi dövləti arasında siyasi əlaqələri möhkəmləndirmək, Osmanlı imperiyasına qarşı mümkün əməkdaşlıq imkanlarını araşdırmaq və iki dövlət arasında diplomatik münasibətləri inkişaf etdirmək idi. Səfirin Qəzvinə gəlişi münasibətilə təşkil olunan rəsmi mərasimlər Səfəvi sarayının xarici nümayəndələrə verdiyi əhəmiyyəti göstərirdi. İlkin mənbələrə, əsasən də Məhəmməd Tahir Vəhid və Pyetro della Vallenin məlumatlarına görə, səfir yüksək ehtiramla qarşılanmış, onun şərəfinə xüsusi qəbul mərasimləri təşkil edilmişdir (Newman, 2006, p. 52-58).

1618-ci il iyunun 17-də Don Qarsiya de Silva Şah I Abbas tərəfindən qəbul edilmişdir. Görüş zamanı İspaniya kralının məktubu və qiymətli hədiyyələri hökmdara təqdim olunmuşdur (Newman, 2006, p. 52-58). Hədiyyələr arasında qızıl və gümüş məmulatlar, qiymətli daşlarla bəzədilmiş əşyalar, odlu silahlar, hərbi sursat və Avropa sənət nümunələri yer alırdı. Bu hədiyyələr təkcə diplomatik nəzakət nümunəsi deyil, həm də İspaniyanın Səfəvi dövləti ilə yaxın münasibətlər qurmaq istəyinin göstəricisi idi. Don Qarsiya de Silvanın səfəri Avropa–Səfəvi münasibətlərinin inkişafında mühüm mərhələlərdən biri hesab olunur. Onun müşahidələri sonradan qələmə aldığı səfər qeydlərində öz əksini tapmış və XVII əsrin əvvəllərində Səfəvi dövlətinin siyasi quruluşu, saray həyatı, diplomatik münasibətləri və beynəlxalq mövqeyi haqqında qiymətli məlumatlar vermişdir. Bu baxımdan Don Qarsiya de Silvanın missiyası yalnız diplomatik hadisə deyil, həm də Səfəvi dövlətinin Avropa dövlətləri ilə münasibətlər tarixinin öyrənilməsi üçün mühüm mənbə əhəmiyyəti daşıyır.

Səfirin fəaliyyəti göstərir ki, Şah I Abbas dövründə Səfəvi dövləti Avropa dövlətləri ilə əlaqələri genişləndirməyə çalışmış, Osmanlı imperiyasına qarşı beynəlxalq siyasi balans yaratmaq məqsədilə diplomatik vasitələrdən fəal şəkildə istifadə etmişdir. Bu siyasət Səfəvi dövlətinin beynəlxalq nüfuzunun artmasına və onun Yaxın Şərqin aparıcı siyasi qüvvələrindən biri kimi tanınmasına şərait yaratmışdır. Pyetro della Valle və digər Avropalı elçilər Səfəvi dövlətini "özləri üçün qərib və kafir ölkəsi" hesab edirdi. O yazır: "Konstantinopolda yalnız katoliklər deyil, bütün xristianlar aralarında ixtilaf olmuş olsa belə, Osmanlı sarayında həmişə birləşirlər. Burada onlardan hər hansı birinə hadisə baş verdikdə, əcnəbi ölkə səfirləri (xristianlar) müştərək surətdə əməl edirdilər. Hətta döyüşmək lazım gəldikdə də bir-birinə dayaq olurdular. Onlar belə hesab edirdilər ki, aralarında məzhəb ayrı-seçkiliyi və ya hər hansı ixtilaf olmuş olsa belə, müsəlmanlar onların ümumi düşmənləridir.

Pyetro della Vallenin qeyd etdiklərindən açıq-aşkar aydın olur ki, hələ XVII əsrin əvvəllərində istər Azərbaycan müsəlmanları, istərsə də Osmanlıdakı müsəlmanların hər biri Avropa xristian nümayəndələrinin əsl düşməni hesab olunurdular (Bayramlı və Şabiyev, 2016, s. 110; Abbasov və Bayramova, 2020). Bədbəxtlikdən hər iki müsəlman dövlətini türk millətinin əsl düşmənləri olan avropalılar bir-birinin üzərinə salmışdı. Düşmən sandıqları iki eyni xalqı bir-birilə vuruşdururdu. Lakin bunu nə Səfəvi hökmdarları, nə də Osmanlı sultanları dərk edib, qəbul etmək istəmirdilər.

Pyetro yazır ki, Şah I Abbas yenidən Osmanlı elçisi ilə sülh haqqında danışıq aparırdı. Bu dəfə onlar ikilikdə heç kimin iştirakı olmadan, təkbətək otaqda söhbəti davam etdirirdilər. O, yazır: “Şah tam sülh tərəfdarıdır. Lakin istəyir ki, bu məsələ onun şöhrətinə ləkə vurmamış olsun və şərafətli sülh sazişi imzalansın, yəni türklərin tələbi əsasında işğal olunmuş ərazidən çıxmağa və ya onlara ildə ipək hədiyyə göndərilməsinə razı ola bilmirdi. Şah razı idi ki, bir dəfə hədiyyə kimi Osmanlı sultanına ipək göndərsin, hətta ikinci dəfə də ipək göndərməyi öhdəsinə götürməyə razı idi (Matthee, 1999, p. 33-48). Lakin Osmanlının işğal etdiyi ərazinin onlara verilməsinə heç cür razı ola bilmirdi. 1617-ci il iyunun 17-də İspaniya elçisi Don Qarsiya de Silva Şah I Abbasla Qəzvində Şah sarayında görüşür (Uzunçarşılı, 1988, s. 25-47). Birinci görüş olduğuna görə, Şah onun üçün qonaqlıq təşkil edir. Həmin qonaqlıqda müxtəlif geyimdə və müxtəlif dildə danışan 100-dən artıq adam, o cümlədən Avropa dövlətləri elçiləri də iştirak edirdi. Bu ziyafətdə iştirak edənlər arasında Pyetro della Valle də var idi. İspaniya elçisi özü ilə Şaha İspaniya pulu ilə 100 min eku dəyərində, Hindistandan isə 100 dəvə yükü istiot hədiyyə gətirmişdi (Newman, 2006, p. 52-58). O, bu istiotları İsfahanda Şahın yaxın adamlarına bağışlamışdı. Elçinin Şaha təqdim etdiyi hədiyyələr arasında qızıl, gümüş, büllur qab-qacaq, zümrüd, almas və müxtəlif cəvahiratlarla bəzədilmiş 60 zəncir də var idi. Onların hər birini bir nəfər gənc götürüb Şaha təqdim edirdi. Bunlarla bərabər, elçi Şaha zərli qiymətli yəhər və yüyən, ox, yay, fitilli tüfənglər, qiymətli hərbi sursat, İspaniya kralının öz belinə bağladığı cəvahir ilə bəzədilmiş qiymətli xəncər və qılınc və s. hədiyyə etmişdi. Pyetro della Valle qeyd edir: “İspaniya kralı ona görə bunları Şaha göndərmişdi ki, o bilirdi Şah boş vaxtlarında dəmirçilik və dülgərlik işlərilə məşğul olur. Hədiyyələr arasında firəng yayları, Hindistanda istehsal olunmuş nizələr, müxtəlif paltarlar, bir neçə şəkil, o cümlədən Fransanın yeni mələkəsinin şəkli (təsviri) var idi...” (Schipano, 1843, p. 660-665; Valle, 1843, p. 175-179).

Pyetro della Vallenin qeydləri göstərir ki, XVII əsrin əvvəllərində Səfəvi dövlətinin xarici siyasətində diplomatik vasitələr mühüm yer tuturdu. Şah I Abbas Osmanlı imperiyası ilə münasibətlərdə sülhün qorunmasına üstünlük versə də, dövlətin siyasi nüfuzuna və ərazi bütövlüyünə xələl gətirə biləcək güzəştlərə razı olmurdu. Bu, onun diplomatik fəaliyyətində praqmatizm ilə dövlət maraqlarının müdafiəsinin uzlaşdırıldığını göstərir. Eyni zamanda, Don Qarsiya de Silvanın qəbul mərasimi və təqdim etdiyi qiymətli hədiyyələr Səfəvi dövlətinin Avropa ölkələri ilə münasibətlərinin yüksək səviyyədə olduğunu nümayiş etdirir (Newman, 2006, p. 52-58). İspaniya nümayəndəliyinin fəaliyyəti Osmanlı imperiyasına qarşı mümkün siyasi əməkdaşlıq imkanlarının araşdırılması ilə yanaşı, Səfəvi dövlətinin beynəlxalq nüfuzunun artdığını da göstərir. Beləliklə, Pyetro della Vallenin müşahidələri Şah I Abbas dövründə Səfəvi dövlətinin həm Osmanlı imperiyası, həm də Avropa dövlətləri ilə münasibətlərində çevik və uzaqgörən diplomatik siyasət həyata keçirdiyini təsdiq edən mühüm tarixi mənbə kimi çıxış edir.

*Şah I Abbasın siyasi və diplomatik baxışları*. Pyetro della Vallenin Şah I Abbasla görüşü Səfəvi sarayının Avropa dövlətləri və xristian dünyası haqqında təsəvvürlərini öyrənmək baxımından mühüm əhəmiyyət daşıyır. Səyyahın qeydləri göstərir ki, Şah I Abbas yalnız hərbi və siyasi məsələlərlə deyil, həm də Avropanın dini-siyasi quruluşu, Papalıq institutu və xristian dünyasının daxili vəziyyəti ilə yaxından maraqlanırdı. Bu məlumatlar Səfəvi hökmdarının beynəlxalq hadisələrdən xəbərdar olduğunu və xarici siyasətində geniş geosiyasi baxışa malik olduğunu göstərir. Pyetro della Valle Şahla görüşünü təsvir edir və diplomatik münasibətlərdən söhbət açır. Səyyah qeyd edir: “Şah məndən Papa, onun yaşı, sağlamlığı və digər məsələlər haqqında soruşdu. Bununla o, papalıq institutunun mahiyyətini dərk etməyə çalışırdı. Papa necə seçilir, onun hakimiyyəti necə müəyyənləşdirilir, kardinallar haqqında məlumatlar əldə etmək istəyirdi. Bütün bunlardan bildiklərim haqqında Şaha qısa da olsa, məlumat verdim. Mən danışan zaman o, mənim söylədiklərimi farscaya tərcümə edirdi, ətrafındakılardan aydın olub-olmadığını da soruşurdu. Şah orada bir növ tərcüməçi rolunda çıxış edirdi, mən və digər insanlarla fikir mübadiləsi aparırdı. Bəzən mənim danışdığım türk dili anlaşılmırdı, çünki oradakılar deyirdi ki, mənim türkcəm Osmanlı türkcəsidir. Mən bu situasiyada çöldə gözləyən tərcüməçini çağırdım, amma gecikdiyindən, Şah özü uca səslə Yaqub adlı tərcüməçini

səslədi. Tərcüməçi gəldiyi zaman Şah onu diqqətlə gözdən keçirdi və haradan olduğunu soruşdu. O, Əlincədən gəldiyini və erməni olduğunu söylədi. Şah onu frank adlandırırdı, çünki o zaman Şərqdə qərbliləri frank adlandırırdılar (Newman, 2006, p. 52-58; Savory, 1980).

Şah qeyd etdi ki, Naxçıvan yaxınlığında yerləşən həmin ərazidə çoxlu mülklər vardır ki, onlar erməni xristianlarına məxsusdur, lakin erməni dilində danışmaqlarına baxmayaraq, onlar əsrlər boyunca burda məskunlaşan katoliklərdəndir. Latın ayinlərini yerinə yetirən bu ermənilər Dominikan keşişlərinə tabedirlər. Lakin tərcüməçi bildirdi ki, o, frank deyil, məhz ermənidir. Bundan sonra Şah ondan soruşdu ki, hansı kənddəndir, cavabı aldıqdan sonra tərcüməçinin dediklərini təsdiqlədi, çünki ermənin yaşadığı kənd başdan-başa ermənilərdən ibarətdir" (Schipano, 1843, p. 660-665). Pyetro della Vallenin məlumatlarından aydın olur ki, Şah I Abbas Avropa dövlətləri haqqında kifayət qədər geniş biliyə malik idi. Onun Papa, kardinallar və katolik kilsəsinin idarəetmə sistemi haqqında verdiyi suallar sadəcə maraqdan irəli gəlmirdi. Bu suallar Şahın Avropa dövlətlərinin siyasi və dini institutlarını öyrənmək istəyini əks etdirirdi. Hökmdarın söhbət zamanı tərcüməçi kimi çıxış etməsi, müxtəlif dillərdə danışan şəxslərlə ünsiyyət qurması və müzakirələrə fəal şəkildə qoşulması onun yüksək intellektual hazırlığını nümayiş etdirir. Mənbədə diqqəti cəlb edən digər məqam Şahın Naxçıvan və Əlincə bölgəsində yaşayan erməni katolikləri haqqında ətraflı məlumat verməsidir. Bu fakt Səfəvi hökmdarının ölkədə yaşayan müxtəlif dini icmaların vəziyyətindən və onların sosial-mədəni xüsusiyyətlərindən xəbərdar olduğunu göstərir.

Eyni zamanda, Şahın Avropa və xristian dünyası haqqında məlumatlı olması Səfəvi dövlətinin beynəlxalq əlaqələrə verdiyi əhəmiyyətin göstəricisidir. Pyetro della Valle ilə aparılan dialoq zamanı Şah I Abbasın İspaniya və ümumilikdə Avropa siyasəti haqqında fikirləri də diqqətəlayiqdir. O, İspaniya kralının Osmanlı imperiyasına qarşı daha qətiyyətli mövqe tutmalı olduğunu bildirir və Avropa dövlətlərinin parçalanmış vəziyyətini onların zəifliyinin əsas səbəblərindən biri kimi qiymətləndirir. Şahın lüteranlar haqqında məlumatlı olması və Avropadakı dini-siyasi qarşıdurmaları qeyd etməsi onun beynəlxalq siyasi prosesləri yaxından izlədiyini göstərir. Bu baxımdan Şah I Abbas yalnız regional hökmdar deyil, həm də dövrün qlobal siyasi münasibətlərini qiymətləndirə bilən uzaqgörən dövlət xadimi kimi çıxış edir.

Beləliklə, Pyetro della Vallenin qeydləri Şah I Abbasın diplomatik dünyagörüşünü və beynəlxalq siyasətə dair baxışlarını öyrənmək üçün mühüm mənbə hesab edilə bilər. Mənbədən aydın olur ki, Səfəvi hökmdarı Avropa dövlətlərinin siyasi vəziyyəti, Papalıq institutu və xristian dünyasının daxili problemləri barədə məlumatlı olmuş, bu bilikləri öz xarici siyasət strategiyasında nəzərə almışdır. Şahın Avropa siyasətinə dair mülahizələri onun geniş siyasi təfəkkürə malik olduğunu və beynəlxalq münasibətləri regional deyil, daha geniş geosiyasi kontekstdə qiymətləndirdiyini göstərir.

*Şah I Abbasın "Qərb"ə münasibəti.* Şah I Abbasın Pyetro della Valle ilə dialoqundan aydın olur ki, Şah dövrün siyasi-diplomatik vəziyyətini çox düzgün şərh edir. Şah Abbas Valle vasitəsilə Qərb hökmdarlarına müxtəlif məsləhətlər vermiş, onların cəsarətsizliyini eyham vurmuşdur (Uzunçarşılı, 1988, s. 140). Pyetro della Vallenin qeydlərində əks olunan dialoq Şah I Abbasın beynəlxalq siyasi proseslərə dərindən bələd olduğunu göstərir. Hökmdarın Papalıq institutu, İspaniya krallığı və Avropadakı dini-siyasi qarşıdurmalar haqqında verdiyi suallar onun yalnız regiondakı deyil, həm də Avropadakı siyasi hadisələri izlədiyini nümayiş etdirir (Matthee, 2012). Şahın lüteranları İspaniya kralının əsas rəqiblərindən biri kimi qeyd etməsi Avropada Reformasiya hərəkatının yaratdığı siyasi və dini parçalanma haqqında məlumatlı olduğunu göstərir.

Pyetro della Valle ilə görüşərkən Şah I Abbas qeyd etmişdir: İspaniya kralı bir əsgər kimi öndə getməli, ya ölməli, ya da Qüdsü geri almalıdır" (Schipano, 1843, p. 660). Bu nitq Şah I Abbasın Osmanlı imperiyası qarşısında aciz qalan Qərb dünyasına bir növ ismarıcı idi. Bunlarla bərabər, Şah I Abbas danışıq əsnasında bir sıra dini-siyasi məsələlərə də aydınlıq gətirmək istəmişdir. Dialoqdan

aydın olur ki, Şah I Abbas Avropa dövlətlərinin Osmanlı imperiyasına qarşı uğursuzluqlarının əsas səbəbini onların daxili parçalanmış vəziyyətində görürdü. O, İspaniya kralının şəxsən ordunun başında dayanmalı olduğunu vurğulayaraq güclü liderlik amilinin əhəmiyyətini ön plana çəkirdi. Bu fikir, eyni zamanda, Şahın öz idarəçilik təcrübəsinin və hərbi-siyasi fəaliyyətinin əksi kimi qiymətləndirilə bilər. Çünki Şah I Abbas hakimiyyəti dövründə dövlətin mərkəzləşdirilməsi, ordunun yenidən təşkili və hərbi yürüşlərdə şəxsən iştirak etməsi ilə seçilmişdir.

Pyetro della Valle isə cavab olaraq, Qərb dünyasının pərakəndəliyinə aydınlıq gətirəcək mövzularda çıxış etmişdir. Səyyah Şaha cavab verir ki, İspaniya kralı qüdrətli olsa belə, krallıq daxilində vəziyyət yaxşı deyil. Türklərə hücum etmək üçün onların vahid qüvvəsi yoxdur. Şah İspaniya kralının yaxın düşmənini əvvəlcə soruşur, sonra cavabı gözləmədən özü söyləyir ki, lüteranlardır. Bu da Şahın o zaman Qərb dünyasının siyasi vəziyyətini yaxından izlədiyini sübut edir (Uzunçarşılı, 1988, s. 140). Şahın yüksək idarəçilik qabiliyyətini ortaya çıxaran digər məqam onun İspaniya kralının addımlarını siyasi cəhətdən düzgün ifadə etməsidir. Səyyah qeyd edir: "İspaniya kralı ilk olaraq öz qüvvələrini toplayıb ətrafındakı düşmənləri məhv etməlidir, çünki ətrafdakı qüvvələri aradan qaldırmadan xarici siyasətdə heç nə etmək olmaz. Mən başa düşürəm ki, İspaniyada burada olduğu kimi qonşu düşmən qüvvələri aradan qaldırmaq üçün vahid qüvvə yoxdur, ərazilərin arasında bağlılıq yoxdur. Şah isə Vallenin bu sözləri ilə razılaşmır və cavab verir ki, İspaniya kralı ilk öncə özü əsgər olmalı, ordunun başında komandanlıq etməli, əsas işləri vəzirlərə, vassallara tapşırmalıdır, mənim kimi irəlidə şəxsən özü getməlidir" (Schipano, 1843, p. 660; Silva y Figueroa, Don Garcia de, 1903). Şahın fikirlərində siyasi realizm elementləri də açıq şəkildə görünür. O, xarici siyasətdə uğur qazanmaq üçün ilk növbədə daxili sabitliyin və siyasi birliyin təmin edilməsini vacib hesab edir. Bu yanaşma erkən yeni dövr dövlətçilik düşüncəsinin mühüm xüsusiyyətlərindən biri kimi qiymətləndirilə bilər. Şahın Avropa hökmdarlarına ünvanladığı tövsiyələr əslində onun dövlət idarəçiliyi və beynəlxalq münasibətlər haqqında formalaşdırdığı siyasi konsepsiyanı əks etdirirdi.

## Müzakirə və Nəticə

Pyetro della Valle və Don Qarsiya de Silvanın qeydlərinin təhlili göstərir ki, XVII əsrin əvvəllərində Səfəvi dövlətinin xarici siyasəti yalnız regional maraqlarla məhdudlaşmamış, daha geniş beynəlxalq siyasi məqsədlərə xidmət etmişdir. Avropa səyyahlarının və diplomatlarının müşahidələri Şah I Abbasın beynəlxalq münasibətlər sistemində baş verən hadisələri diqqətlə izlədiyini və bu prosesləri dövlət maraqları baxımından qiymətləndirdiyini təsdiqləyir.

Tədqiqat zamanı istifadə olunan mənbələr Şah I Abbasın Osmanlı imperiyasına qarşı mübarizədə Avropa dövlətləri ilə əməkdaşlıq imkanlarına xüsusi önəm verdiyini göstərir. Lakin bu əməkdaşlıq dini yaxınlıqdan deyil, siyasi praqmatizmdən irəli gəlirdi. Şah I Abbas Avropa dövlətlərini potensial strateji tərəfdaş kimi qiymətləndirir, onların hərbi və siyasi imkanlarından Osmanlı imperiyasına qarşı balans yaratmaq məqsədilə istifadə etməyə çalışırdı. Bu baxımdan Səfəvi diplomatiyası erkən yeni dövr beynəlxalq münasibətlərində realpolitik prinsiplərinin tətbiqinin nümunəsi kimi dəyərləndirilə bilər.

Pyetro della Vallenin qeydlərində əks olunan məlumatlar Şah I Abbasın Avropanın dini-siyasi vəziyyəti haqqında kifayət qədər geniş biliyə malik olduğunu göstərir. Onun Papalıq institutu, katolik kilsəsinin idarəetmə sistemi, İspaniya krallığı və lüteran hərəkatı barədə verdiyi suallar təsadüfi maraqdan daha çox, siyasi məqsədlərə xidmət edən məlumat toplama cəhdi kimi görünür. Bu fakt Şahın diplomatik fəaliyyətində informasiya amilinə xüsusi əhəmiyyət verdiyini göstərir. Digər tərəfdən, mənbələrin tənqidi təhlili də vacibdir. Həm Pyetro della Valle, həm də Don Qarsiya de Silva Avropa xristian mühitinin nümayəndələri olduqlarından, onların müşahidələrində müəyyən subyektiv yanaşmaların mövcud olması istisna edilmir. Xüsusilə müsəlman dövlətləri ilə bağlı dəyərləndirmələrdə dini və mədəni stereotiplərin təsiri hiss olunur (Blair & Jonathan, 1994; Ferrier, 1996; Şarden,

1994). Buna baxmayaraq, onların qeydləri Səfəvi sarayında baş verən diplomatik proseslərin öyrənilməsi üçün birinci dərəcəli mənbələr sırasına daxildir.

Araşdırma göstərir ki, Şah I Abbasın diplomatik fəaliyyəti hərbi uğurlarla yanaşı, çevik xarici siyasət kursuna əsaslanırdı. O, Osmanlı imperiyası ilə münasibətlərdə sülh və qarşıdurma arasında tarazlığı qorumağa çalışmış, eyni zamanda, Avropa dövlətləri ilə siyasi əlaqələri genişləndirərək Səfəvi dövlətinin beynəlxalq mövqeyini möhkəmləndirmişdir. Bu siyasət nəticəsində Səfəvi dövləti XVII əsrin əvvəllərində Yaxın Şərqin ən nüfuzlu siyasi qüvvələrindən birinə çevrilmişdir.

Beləliklə, Avropa səyyahlarının məlumatları Şah I Abbasın yalnız uğurlu hərbi lider deyil, həm də mürəkkəb beynəlxalq münasibətlər sistemini dərindən dərk edən və onu dövlət maraqları naminə istiqamətləndirə bilən uzaqgörən diplomat olduğunu göstərir. Bu xüsusiyyətlər onun fəaliyyətini erkən yeni dövrün görkəmli dövlət xadimləri sırasında qiymətləndirməyə əsas verir.

Pyetro della Vallenin qeydləri Şah I Abbasın yalnız hərbi və siyasi lider deyil, həm də beynəlxalq münasibətləri dərindən dərk edən uzaqgörən dövlət xadimi olduğunu göstərir. Dialoqdan aydın olur ki, Səfəvi hökmdarı Avropanın dini və siyasi vəziyyəti, Papalıq institutu və Qərb dövlətləri arasındakı münasibətlər haqqında geniş məlumatlara malik olmuşdur. Şah I Abbas Avropa dövlətlərinin zəifliyinin səbəbini onların siyasi parçalanmasında və liderlik çatışmazlığında görmüş, güclü hakimiyyət, siyasi birlik və fəal liderlik prinsiplərini uğurlu dövlət idarəçiliyinin əsas şərtləri kimi qiymətləndirmişdir. Bu baxımdan, Pyetro della Vallenin məlumatları Şah I Abbasın diplomatik dünyagörüşünü, geosiyasi düşüncəsini və beynəlxalq münasibətlərə dair baxışlarını öyrənmək üçün mühüm tarixi mənbə kimi xüsusi əhəmiyyət daşıyır.

## Ədəbiyyat

1. Abbasov, İ, Bayramova, G. (2020). *Pyetro della Valle. Türk dilinin qrammatikası.* Zərdabi Nəşriyyatı MMC.
2. Amanat, A. (2017). *Iran: A Modern History.* Yale University Press.
3. Bayramlı, Z., Şabiyev, B. (2016). *Azərbaycan Səfəvi dövləti (XVI-XVII əsrlər).* Avropa Nəşriyyatı.
4. Blair, Sh.S., Jonathan, M.B. (1994). *The Art and Architecture of Islam, 1250–1800.* Yale University Press.
5. Ferrier, R.W. (1996). *A Journey to Persia: Jean Chardin's Portrait of a Seventeenth-Century Empire.* I.B. Tauris.
6. Matthee, R. (1999). *The Politics of Trade in Safavid Iran: Silk for Silver, 1600–1730.* Cambridge University Press.
7. Matthee, R. (2012). *Persia in Crisis: Safavid Decline and the Fall of Isfahan*. I.B. Tauris.
8. Newman, A.J. (2006). *Safavid Iran: Rebirth of a Persian Empire*. I.B. Tauris.
9. Savory, R. (1980). *Iran under the Safavids.* Cambridge University Press.
10. Schipano, M. (1843). *Viaggi di Pietro della Valle, II pellegrino, part-II.* La biblioteca di New York.
11. Silva y Figueroa, Don Garcia de (1903). *Commentarios de la Embajada al Rey Xa Abbas de Persia*. Real Academia Espanola.
12. Şarden J. (1994). *Parisdən İsfahana səyahət.* Elm Nəşriyyatı.
13. Uzunçarşılı, İ.H. (1988). *Osmanlı Tarihi*. Vol. 3. Türk Tarih Kurumu Yayınları.
14. Valle, Pietro della. (1843). *Viaggi di Pietro della Valle il Pellegrino*. Vol. 2. G. Bargiacchi.